

# Azərbaycan animasiya kinosunda xalça

***Sevinc Əzimova***
*AMEA Memarlıq və İncəsənət İnstitutunun doktorantı*
***e-mail:*** *elsever.sevinc@gmail.com*

Azərbaycan xalçaları xalqımızın zəngin mədəniyyətə malik olduğunu, onun qədimliyini dünyaya sübut edən ən qiymətli maddi mədəniyyət nümunələrindəndir. Azərbaycan qadınlarının toxuduqları xalçalar bu gün dünyanın bir çox muzeylərini bəzəyir, milli mədəniyyətimizi təmsil və təbliğ edir.

Azərbaycanda xalçaçılıq sənətinin inkişafı barədə məlumatlara qədim mənbələrdə də rast gəlinir. Herodot, Ksenofont, Klavdi Elian kimi dünya tarixçilərinin bu barədə yazıları günümüzədək gəlib çıxıb. Orta əsrlərin bir çox yazılı mənbələrində də Azərbaycan xalçalarından geniş söz açılır. X əsrə aid edilən "Hüdud-əl-aləm" ("Dünyanın sərhədləri") əsərində naməlum müəllif Muğanda toxunan palazlardan və çullardan, Naxçıvanın zili toxunuşlu xalılarından bəhs edir.

"Kitabi Dədə Qorqud" dastanında, Əbül üla Gəncəvinin, Nizami Gəncəvinin və Əfzələddin Xəqaninin əsərlərində Azərbaycanın ipək xovlu, xovsuz xalçaları təsvir və tərənnüm olunur. N.Gəncəvinin və Ə.Xaqaninin əsərlərində "həsir", "kilim, "gəbə" kimi xalça məmulatlarının adları çəkilir, "əriş", "arğac", "cəhrə" kimi xalçaçılıq terminləri işlədilir.

Milli incəsənətimizin bir çox sahələrində olduğu kimi, Azərbyacan kinosunda, o cümlədən rəssamlıqla sıx bağlılığı olan animasiya kinoşunda da xalça sənəti geniş əksini tapıb. Animator rəssamlarımız yeri gəldikcə xalça ornamentlərindən, naxışlarından bol-bol bəhrələniblər. Azərbaycan animasiya filmlərində xalça müstəqil bir obrazdır: o danışır, hərəkət edir, uçur, qaçır, darda olanların köməyinə yetişir.

"Cırtdanın yeni sərgüzəştləri" (1973, quruluşçu rejissor - Nazim Məmmədov, quruluşçu rəssam - Kamil Nəcəfzadə) animasiya filmində balaca oğlanın topunu yel götürüb qaçır. Cırtdan topuna çata bilmir, ağlamağa başlayır. Bu vaxt cırtdanın köməyinə nağıllardan tanıdığımız uçan xalça gəlir. Uçan xalça nağıllarda həmişə darda olan insanlara yoldaşlıq edib, xeyir qüvvələrin yanında olub. Burada da onun həndəsi naxışları dil açıb danışır; oğlanı dilə tutur, niyə ağladığını soruşur, dərdinə şərik çıxır. Biz xalçanı gözləri, ağzı, burnu olan, hərəkət edən, danışan canlı obraz kimi görürük. Onun üzərindəki naxışlar bizə nənələrimizin köhnə xalçalarını xatırladır, istər-istəməz bu xalça bizə doğma gəlir. Filmdə uçan xalçanı səsləndirən aktyor kişidir. Deməli, xalça da burada kişi obrazında verilib.

1984-cü ildə rejissor Ağanağı Axundovun və quruluşçu rəssam Rasim Babayevin birgə ərsəyə gətirdiyi "Sehrli naxışlar" animasiya filminin elə titrlərindən başa düşülür ki, söhbət hansı sehrli naxışlardan gedir. Filmin titrləri xalça fonunda yazılır. Ssenarisi Vidadi Paşayevə məxsus olan filmdə nənəsi ilə birlikdə yaşayan Cırtdan adlı balaca oğlandan bəhs olunur. Onun boyu heç üzükcə də deyil, amma əlləri "qızıldı". Möcüzəli əlləri ilə xalça toxuyur. Nənəsinə kömək edir. Film başlayarkən, Cırtdanı hana arxasında xalça toxuyarkən görürük. Toxuduğu xalçada bir-birinə əks istiqamətdə dayanan iki at təsviri verilib. Onun kiçik, ilk baxışdan yoxsul görünən otağı göy qurşağı kimi rəngbərəng xalçalarla döşənib. Bir gün Cırtdan səyahətə çıxmaq, görmədiyi yerləri gəzmək qərarına gəlir. Evin pəncərəsindən içəri düşən rəngbərəng günəş şüalarını tutmaq istəyən Cırtdan nənəsinə deyir ki, mən gedib dünyanı gəzəcəyəm, günəş şüalarına bənzəyən saplar tapacağam. O, bir araba təkərinin içinə girib hərlənə-hərlənə dünyanı gəzməyə çıxır. Yolda o, çoxlu atlarla, dəvələrlə rastlaşır. Cırtdan yolboyu oxuduğu mahnıda yaşıl otlardan, dağlardan, dərələrdən, güllərdən danışır, gördüyü gözəl təsvirləri xalçada toxuyacağından söhbət açır. Cırtdan təsadüfən bir həyətə gəlir. Bu həyət, bu böyük ev varlı bir şəxsə məxsusdur. O, varlı olduğu qədər də xəsisdir. Arvadı ilə ağacın altına sərdikləri xalçanın üstündə oturub danışıb-gülürlər. Hana isə boş qalıb. Üstündəki iplər hazır şəkildə dayanıb, kiminsə onlara toxunub möcüzə yaratmağını gözləyirlər.

Cırtdanın çiynində qəşəng toxunmuş, gözoxşayan naxışları olan bir xurcun var, üstündə də ağ at şəkli təsvir olunub. Xəsis varlı xurcunu kimin toxuduğunu soruşur. Cırtdan qürurla özünün toxuduğunu bildirir. Bu zaman kişi deyir ki, hanada yarımçıq qalan xalçanı da toxusan, səni qızıla tutacağam. Cırtdan isə ona: "Mənə qızıl lazım deyil, əgər toxuduğum xalça xoşuna gəlsə, qalan sapları mənə verərsən", - deyə cavab verir.

Cırtdan söz verdiyi kimi gözəl bir xalça toxuyur. Gözlərimiz önündə dəvə, at təsvirləri, robmvari naxışları ilə göz oxşayan bir xalça yaranır. Amma xalça hazır olandan sonra xəsis kişi Cırtdanın haqqını verməkdən imtina edir, onu həyətindən qovur. Bu zaman əsl möcüzə baş verir. Sənətin gücü özünü göstərir. Xalçadakı dəvələr, atlar canlanır, nərildəməyə, kişnəməyə başlayır, bir-bir xalçadan ayrılıb çıxırlar. Sanki bu atlar, dəvələr xalçanın bətnindən dünyaya gəlirlər. Heyvanlar araba təkərinə minib getməyə hazırlaşan Cırtdana çatırlar. Cırtdan dəvələrdən birini minib yoluna davam edir. Xəsis kişi isə dəvələrin, atların yerinə xalçaya çəkilir, xalçadakı dəlikdə qalır.

Film sənətin qüdrətindən, möcüzələr yaratmağa qadir olduğundan, eyni zamanda ədalətin ədalətsizlik üzərində qələbəsindən də bəhs edir. Bu filmdə əsas personajlardan biri olan xalça ədalətin bərpası uğrunda mübarizə aparır. Müəlliflər balaca tamaşaçılara çatdırmaq istəyirlər ki, insan ədalətsizlik üzərində öz ağlı, sənəti və yaratdığı gözəlliklərlə qalib gəlməlidi.

1983-cü ildə ekranlara çıxan "Cırtdan-pəhləvan" filmində (quruluşçu rejissor- Bəhmən Əliyev, quruluşçu rəssam- Elçin Axundov) Cırtdanın anası həyətdə qurulmuş hanada xalça toxuyur. Uşaqların gözü önündə xalçanın toxunması prosesi canlanır. Qadın gah toxuyur, ilmələr salır, gah da əlindəki həvə ilə vurur. Həndəsi naxışları olan xalça artıq yarıya qədər toxunub. Üzü hanaya tərəf oturan qadının milli geyimindəki naxışlar da diqqətdən kənarda qalmır. Bu filmdə xalça epizodik rolda çıxış etsə də, uşaqlarda güclü təəssürat buraxır.

Bir zamanlar, az qala hər evdə cəhrə, hana var idi. Demək olar, bütün qadınlar, qızlar xalça toxumağı bacarır, nəsildən-nəslə ötürülən bu sənəti öz balaca qızlarına da öyrədirdilər. Təəssüf ki, indi uşaqlar nəinki xalça toxumaq üçün lazım olan dəzgahları tanımırlar, hətta milli xalçalarımızı da tanımaqda çətinlik çəkirlər. Bu baxımdan belə filmlərdə qədim xalq sənəti nümunələrimizin epizodik də olsa görünməsi olduqca vacib məsələdi.

1983-cü ildə çəkilən "Münəccimin şəyirdi" (quruluşçu rejissor və rəssam – Arif Məhərrəmov) adlı animasiya filmində də sehrli, uçan xalça obrazı var. Film başlayanda biz qoca münəccimin göyləri müşahidə etdiyini görürük. Bu vaxt bir parlaq ulduz yanıb-sönməyə başlayır. Şahmar Ələkbərovun səsləndirdiyi diktor mətnindən anlaşılır ki, hardasa fəlakət baş verib. Münəccim şəyirdinə deyir ki, bəlkə hardasa, kimsə köməyimə möhtacdı. O, şəyirdini də götürüb sehrli, uçan xalça ilə yola düşür. Xalça yardım üçün tələsir. Onları fəlakətdə olan insanların, şəhərin köməyinə məhz sehrli xalça çatdırır.

"Telefilm"in 1986-cı il istehsalı olan "Xeyirxah nağıl" kukla filmində (quruluşçu rejissor - Vaqif Behbudov, quruluşçu rəssam - Vaqif Məmmədov) də həsir toxuyan nənə və nəvədən danışılır. Bir səhər nənə həyətdə saldığı butalı palazın üstündə səhər yeməyi hazırlayır. Başqa bir zolaqlı naxışları olan palazın üstündə isə nənə çörək bişirmək üçün xəmir yayır. Balaca Zaur isə nənəsinə kömək etmək üçün bəhanə axtarır. Əvvəl çörək yapmaqda kömək etmək istəyir. Nənəsi – "sən hələ balacasan, oda yaxınlaşmaq olmaz", - deyir. Bu vaxt Zaur həyətin bir küncündə atılıb qalan dəzgahı görür. Bu dəzgahın nəyə yaradığını soruşur. Nənəsi dəzgahın həsir toxuduğunu, bunun üçün isə qamış lazım olduğunu deyir. Nənə onu da əlavə edir ki, "əvvəllər qamışın dalınca özüm gedirdim, indi isə mənim üçün çətindi, yaşlanmışam". Qamış isə evdən çox uzaqda bitirdi. Oraya böyüklər gedə bilərdi. Zaur israr edərək, nənəsindən icazə alır, qamış gətirməyə yollanır. Yolda onun qarşısına xeyirxah, sehrbaz qoca çıxır. Zaur öz yeməyini onunla bölür. Qoca əvvəlcə onu çətin yoldan döndərmək istəyir, amma Zaurun qorxmadığını görüb ona yol göstərir. Zaur yolda çətinliyə düşmüş heyvanları, quşları, ağacları xilas edir. Bütün yolboyu xeyirxah sehrbaz Zauru izləyir. Onun nə qədər cəsur və xeyirxah olduğunu görür. Zaur çətinliklərə qalib gələrək, axşam düşəndə qamışdan tutduğu şələ ilə evlərinə qayıdır. Səhər nənə-bala dəzgahı işə salırlar. Toxuduqları həsirin üstündə irili-xırdalı rombvari fiqurlar işləyirlər. "Sənin kölgəliyin hazırdı"- deyib, nənəsi toxuduğu həsiri həyətə sərir. Zaur sevincək həsirin üstünə uzanır. Bu vaxt xeyirxah qoca həyətdə peyda olur, o, saz çalmağa başlayır. Musiqi səsləndikcə həsir yerdən aralanır, saz havasında oynaya-oynaya havaya qalxır. Zaur sevinclə nənəsini səsləyir: "Nənə, mən uçuram!" Uçan həsir quşlara, kəpənəklərə, buludlara qoşulur. Həsir burada xeyirxahlığın, cəsarətin və zəhmətin simvoluna çevrilir. Müəlliflər sanki deyirlər ki, xeyirxahlıq, zəhmət insana həmişə sevinc gətirir, onu qanadlandırır, ucaldır.

1995-ci ildə "Azanflm" studiyasında çəkilmiş və böyüklər üçün nəzərdə tutulmuş "Karvan" (quruluşçu rejissor və rəssam Nazim Məmmədov) animasiya filmi 3 kinonovelladan ibarətdi. Birinci novellada qədim insan məskəni olan Qobustandan bəhs olunur. İkinci novellada Şərq və qadın mövzusu işıqlandırılır. Üçüncü novellada isə 20 yanvar və Xocalı faciələrindən bəhs olunur. Filmdə Soltan Hacıbəyovun "Karvan" simfonik muğamından istifadə olunub. Musiqinin sədaları altında dəvə karvanı irəliləyir. Başqa kadrlarda isə yaşlı qadın xalça toxuyur. Xalçada da dəvə təsvirləri işlənilir. Bir novelladan o birinə keçid olunduqca karvan da hərəkət eləyir. Burada karvan zamanın obrazıdır. Eyni zamanda, yaşlı qadının üzərində "dəvə karvanı"

təsvirləri hördüyü xalça da zamanın tərənnümçüsüdür. Maraqlıdır ki, filmin sonuna qədər xalçanın toxunuşu başa çatdırılmır. Karvan da yoluna davam eləməkdədir. Nə karvan mənzil başına çatır, nə də xalça hazır olur. Qədim dövrlərdən, çox uzaqlardan gəldiyi məlum olsa da, karvanın haradan gəlib hara getdiyi bilinmir... Görünür, müəlliflər bununla həm zamanın, həm də yolun sonsuzluğuna işarə edirlər.

"Göyçək Fatma", "Söhbətül-əsmar" və bir çox başqa milli animasiya filmlərimizdə də xalça təsvirlərindən, naxışlarından və ornamentlərindən istifadə olunub. 1969-cu ildə çəkilən "Cırtdan" və "Cücələrim" filmlərinin təsviri həllində quruluşçu rəssam Elçin Aslanov xalça ornamentlərindən, tikmə naxışlarından istifadə edib.

Göründüyü kimi, milli mədəniyyətimizi zənginləşdirən, evlərimizin, real həyatımızın bəzəyi olan xalçalar zaman-zaman animasiya filmlərimizin də bəzəyinə çevrilərək, onun inkişafına böyük təsir göstərib. Azərbaycan animasiya kinosunda xalça obrazları bir qayda olaraq xeyrxah, müsbət obrazlar kimi tamaşaçılara yüksək ideyalar aşılayıblar.



## Ədəbiyyat:


1. https://az.wikipedia.org/wiki/Xal%C3%A7a
2. https://az.wikipedia.org/wiki/H%C9%99v%C9%99
3. http://www.google.az/url?sa=t&rct=j&q=&esrc=s&source=web&cd=5&ved=0ahUKEwisx63Mm__LAhWJO5oKHVXrDE8QFgg_MAQ&url=http%3A%2F%2Fanl.az%2Fdown%2Faz.xalcasi.pdf&usg=AFQjCNFm_qJsdRUobBUL9QEcrMaoCZOGgA&sig2=ZavKVRnAT0q6LncjsYxQ-A&bvm=bv.118817766,d.bGs
4. https://az.wikipedia.org/wiki/Xal%C3%A7a


## Filmoqrafiya:

1. "Cırtdan"
2. "Cırtdan pəhləvan-2"
3. "Cırtdanın yeni sərgüzəştləri"
4. "Sehrli naxışlar"
5. "Münəccimin şəyirdi"
6. "Xeyirxah nağıl"
7. "Karvan"
8. "Göyçək Fatma"


***Sevinj Azimova***
*PhD student of ANAS Architecture and Art Institute*


### *Carpet in Azerbaijani animation movies*


***Keywords:*** *Azerbaijani carpets, Azerbaijani animation movies, carpet ornaments, carpet types*


### *Summary*


Carpets are the most ancient material and cultural examples of our nation, and are held in the world museums. Being the eternal decoration of our houses, precious dowry of our daughters, the carpet weaving art was reflected in fiction writings, painting and cinema. In the article we are trying to feature the use of carpet ornaments and characters in Azerbaijani animation movies.



***Севиндж Азимова***
*докторант Института архитектуры и искусства НАНА*


### *Ковер в азербайджанских анимационных фильмах*


***Ключевые слова:*** *Азербайджанские ковры, азербайджанские анимационные фильмы, ковровые орнаменты, виды ковров*


### *Резюме*


Ковры – одни из древнейших образцов материальной культуры нашего народа, сегодня они представлены во многих музеях мира. Искусство ковроткачества, во все времена являвшееся украшением быта, владение которым считалось своеобразным приданым для каждой девушки, нашло отражение в художественной литературе, живописи и кино. В статье рассказывается о том, как ковровые орнаменты, образы ковров используются в азербайджанском анимационном кино.